Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Ələkbər Salahzadə: dağ köklərinə söykəc

I YAZI

**Çağdaş Azərbaycan mədəniyyətinin Sənət və Şəxsiyyət harmoniyasını varlığında təcəssüm etdirən Ələkbər Salahzadə (1941-2013). O, ömrünün sonunadək Sözündə və Əməlində insanı ucaldan dəyərlərin daşıyıcısı oldu, - "populyarlığın" yapışqan şirnisinə aldanmadan. "Dünya şan-şan süzülüb, bal tək ürəyə damır..." - həssaslığı ilə onun dərinliyinə vardı, bulud-bulud duyğuların bərəkətini qəlbimizə endirdi. Onun poeziyası o dərinliyə endi ki, məhz oradan insanlığın həqiqətləri birər-birər yüksəlir...**



Poeziya sənətinin mötəbər vəziyyətini belə təsəvvür etmək olar: xalq dili bütün dərinliyi, qol-budağı, imkanları ilə bu sənətin ixtiyarına gəlir; heç bir gəlmə kəlməyə, gəlmə təsirə ehtiyac qalmır (Amma xatırlayaq ki, poeziyamızın yüksək tərəqqi çağı olan XIV-XVI əsrdə ümumşərq şeir ənənəsi Azərbaycan bədii sözünə necə sarmaşmışdı!); xalq şeirdə özünü tapır, dil, sözün ən uca mənasında şeirləşir və xalq yaradıcılığının yüksək mərhələsi olan Şeir mədəniyyəti elə bir səviyyəyə çatır ki, söz düzməyi bacaran hər kəs daha bu yolda uğur qazana bilməyəcəyini aşkar görüb, ondan könüllü imtina edir (ya da obyektiv şərait özü onu mühitdən istər-istəməz təcrid edir...) və nəhayət, ən adi bir həqiqət - ancaq həmişə xüsusi bir iddia ilə göz yumduğumuz bir həqiqət yerini tutur: şeirlə ancaq bu sənət üçün istedada malik olan adam məşğul olur. Xüsusilə poetik dil mədəniyyətinin inkişafı, bədii nüvənin milliləşməsi - şeirimizin həyatında bu meyli gerçəkdən dərinləşdirir.

Ələkbər Salahzadənin şeir yaradıcılığının başlıca dəyəri poeziya dilinin saflaşıb durulaşmasına - yüksək sənətkarlıqla cilalanmasına meydan verməyindədir. Bu incə yaradıcılıq üçün "poetik imtiyazlı" və adi sözlər ayrıntısı yoxdur, dilimizin ən qabarıq mənalı, qüvvətli sözləri ilə yanaşı, ən unudulmuş, amma bununla belə ruhumuzun dirçəliş çağlarının yetirməsi olan ən mayalı sözlər də bu şairin bədii düşüncə orbitindədir. Əgər şeirin dili xalq yaddaşından kök tutubsa, demək, onun idrak kökləri də dərindir, dildəki yeniləşmə də (modernləşmə yox, ilkinliyə qayıdaraq yeniləşmə, bunu həm stixiya, həm prinsip kimi dərk edib ilkinliyə qayıdaraq yeniləşmə!) təfəkkür yeniləşməsindən, fikircə gümrahlaşmadan, özünüifadə cəsarətindən, özünəinamdandır... Aydan arı, sudan duru şeirlər müqabilində sənətkarlıqla peşəkarlığın fərqi də aydınca görünür. Şeirəoxşar formalar "biçməkdə", cürbəcür şeirqurma əməliyyatları aparmaqda "misilsiz" səriştə göstərən zəmanə adamının - peşəkarın qələm məhsulu ilə dünyanı bədii sözün qüvvəsi sayəsində görüb dərk edən və aça bilən sənətkarın əsərinin fərqi də bu "ilahi ölçüdə" göz qabağında olur. Bu "ilahi ölçünü" tənqidin özü də hiss etmədən tənqidə, ədəbiyyatın özü də hiss etmədən ədəbiyyata klassik irsin və müəyyən ədəbi dövrün ən seçmə nümunələri verir. Bu kortəbiilik deyil, sənətin və sənət haqqında elmi fikrin inkişaf stixiyasıdır. Yalnız kortəbii axınla gələnlər o ölçüyə fikir verməyib, göz yumub nə istəsələr yazırlar, bu da ədəbi inkişafın ritmini pozur, ona yayğınlıq gətirir, ən yaxşı halda peşəkar "ustalığına" meydan açılır. Həqiqi sənətkar istedadı olanlar isə o meyarı sanki intuisiya ilə duyub, onun səviyyəsindən yaradıcılıq işi aparırlar. Və bu işin, çalışmanın özü tərəqqinin hərəkətverici qüvvəsi olur.

Ələkbər Salahzadə tənqiddə yox, öz "laboratoriyasında" bişən şairlərdəndir ki, bizim bir çox yazıçılarımızın taleyi belə gətirib. Yarım əsr (!) poeziya sənəti ilə məşğul olan bu şairin yaradıcılığını tənqid bundan sonra mükəmməl təhlildən keçirsə də, keçirməsə də, onun yoxuş yoluna artıq daş döşənib, cəfalara dözmüş atlar irəli gedəbiləcək... Professor Yaşar Qarayevin, təqribən, 30 il bundan qabaq Ələkbər Salahzadə və onun yaşıdlarının kitabları haqqında yazdığı bir məqaləsində nəinki bu şairlərin əsərlərinin, bütövlükdə müasir poeziyamızın çox ciddi bir qüsuruna toxunulurdu: tənqidçi "məna və ideya vüsətinin çatışmadığı, yalnız forma problemlərinin həll edildiyi şeir yolunu haqlı olaraq uğurlu saymırdı, - "o (yəni Ələkbər Salahzadə nəslinin poeziyası - R.U.) bizi baş gicəlləndirən təşbeh, sərt və ekspressiv üslub, süjet paradoksları, final gözlənilməzliyi ilə heyrətləndirir. Lakin ideya möhtəşəmliyi, fəlsəfi fikir siqləti və sanbalı ilə, həqiqət, problem, mətləb kəşfləri ilə bizi heyrətləndirən şeir nümunələri azdır" - qənaətinə gəlirdi. Tamamilə aydındır ki, bu gün də poeziyamızda tənqidçinin irəli sürdüyü problemin həll edildiyini güman etməyə əsasımız yoxdur. Bu, bəlkə də indiki mərhələdə bizim poeziyanın ən qabarıq görünən uçurumudur...

Amma bir qərinəlik zaman da arayıb-axtaran şair üçün az vaxt deyil. Bu qərinədə şairin yaradıcılığı forma yetkinliyi ilə yanaşı, mühüm poetik təfəkkür keyfiyyətlərini də üzə çıxarmışdır. Əgər belə olmasaydı, biz onun yaradıcılığında çox zəngin poetik dünyaduyumunun şahidi olmazdıq... Bu şeirlərdə görsənən dünya - ənənəvi izahlarla bizə bəlli olan dünya deyil. Əgər belə deməl mümkünsə, şairlə dünya arasında heç bir araçı, ötürücü, izahçı yoxdur. Dünya ilk görünən şəkli ilə, doğurduğu ilk emosiya ilə şeirə gəlir... - "Dünya şan-şan süzülüb, bal tək ürəyə damır..." Ona görə də bu şeirlərin bəziləri ilk baxışdan dumanlı lövhə təsiri oyadır. Amma yalnız ilk baxışdan. Çünki o ilk şəkil də, o ilk emosiya da bir sıra şeirlərdə çox dolğun mənalandırmalarla bəyan edilir. Çünki varlıqdan alınan ilk təəssürat yapışıqlı obrazlar doğura bilər, hətta çox cazibədar görünə bilər. Ancaq onun yalnız çox qüvvətli məqamları yaşarı və yaddaqalan olur. Ona görə də "ənənəvi" - izahçı şeir, nəzm-şeir nə qədər yorucu, usandırıcıdırsa, yalnız anım-intuisiyadan doğulan şeir də sanki bir qiymətli anın bəxş etdiyi seyr səviyyəsində qalaraq, mahiyyətə nüfuzun dərinləşməsi üçün yol açmır.



Rahid Ulusel
Fəlsəfə elmləri doktoru, professor

Ələkbər Salahzadə duyğusunun gurluğu, qəlbinin ehtiraslı çağlayışı ilə sənətə gəlib. Sözlərin hərəkətcilliyi, çevikliklə bir-birinə tutaşması, ritm axarına düşüb lay-lay, qatbaqat, kükrəyə-kükrəyə üzə çıxması kimi çox bənzərsiz xassə var onun şeir yaradıcılığında. Bu artıq təkrir oynatması üzərində qələm yormaqdan deyil, varlığın əbədi ahəngi üzərində şair qəlbinin köklənməsindəndir. Şeir ona görə fikri daimi hərəkət axarında ifadə edir ki, onun özü çox təbii və sezilməz bir yolla "dünya ləngərinə" düşməyə can atır, bu əbədi dövranda bulunmaq, onun dəyişən xasiyyətinə, harmoniyasına yatmaq, xaos və təzadlarındansa həyəcana gəlmək şeirin ruhuna xoşdur. Bu zaman şeirdə müdrik sadəliklə çılğın, təşnə sözlərin qanı qaynayır bir-birinə:

*...Bir yamacda gözə dəyir,*
*dillənirsən - sözə dəyir...*
*Baxma, gözə təzə dəyir.*
*Bu Nuhdan qalan dumandı!*

...Bu da biçənəkdəki otlar üçün qoşulmuş şərqi, biçənəkdəki otlar qədər ürəyə yatan şərqi - musiqisi də özündə. Bəstəsini, bəstəkarını gözləyir:

*Biçənəkdəki otlar -*
*tər yaşıl, çiçək təki otlar!*
*Adları ot içində itib-batar,*
*qoxuları havanı udar,*
*yamacı tutar qalar.*
*Bu qoxuda*
*Həzin-həzin sızlayar kamançalar.*
*Hansı otsa qoxusuyla oxuyar,*
*Hansı gülsə meh dəydikcə solo oxuyar...*
*Çiçək ot qoxuyar, gül ot qoxuyar,*
*biçənəkdəki otlar,*
*çiçək təki otlar...*
*Ətriylə, nəfəsilə oxuyar,*
*nəğməli bir quşun həvəsilə oxuyar...*

Bu - dünya gözəlliyinə açılan pəncərədir. Bu ilahi mənzərə xatirimizdə bütün cizgiləri, görümlülüyü ilə yenidən canlana bilir, burada hər şey ehtizazlı, dil olub dillənəndi. Adları Ot içində itib-batan, təkcə öz qoxusuyla oxuyan bu duyğulu-nəğməli otların, çiçəklərin birisi də demir ki, "Mən varam!", "Mən buyam!", onların hamısının birgə nəfəsindən bir Dünya Çəmənliyi yaranıb! Yada necə misilsiz bir sənət yaratdıqlarını dilə belə gətirməyən muğam yaradıcıları düşür... İnsan bu yaradıcı qüvvənin qarşısında pərəstişi ilə də ucala bilər!..

*Körpə ağladıqca səsi bulanır,*
*qıyya-qıyya süzülür,*
*durulur, durulur, söz olur.*
*Tək-tük sözlər darı-darı*
*dilinin ucundan*
*qopur tökülür*
*iri-iri, isti-isti, diri-diri...*
*Körpənin özü kimi totuq sözlər,*
*bir böyrü batıq sözlər,*
*südqarışıq, toran sözlər...*
*Ətcəbala-lütcəbala,*
*birdən səs-səsə verib*
*cəh-cəh vuran sözlər.*
*Şəkər-şəkər dişlərinə dəyib büdrəyən,*
*içində tel-tel titrəyən*
*bir neçə sözlə atılır, qatılır dünyaya*
*qıy çəkir, dünyanı divara dirəyir körpə,*
*Söz-söz tuta-tuta dünyanı, yeriyir körpə...*

Nanotexnologiyanın öyrəndiyi santimetrin milyardda bir hissəsi qədər kiçik zərrəciklərdən Qalaktikalar sisteminin genişliyinədək hər şeyi öyrənməyə can atan insanın böyük idrak yolu belə başlayır... Bu - yolun başlanğıcıdır, amma sonrasını da təsəvvür edirik. Bu, insanın dünyanı ilk bəlirləmə çağıdır, -bütün toxunaqlığı, büdrəyişi ilə qəlbi tərpədən çağıdır... Şair bu çağı ən dadlı sözlərlə, dürdanə kəlmələrlə tutub - vəsf edib. Bu füsunkar vəsf (bəlağətli tərənnüm yox, məhz füsunkar vəsf!) sevginin - həyatsevərliyin gücünədir!

Görək şair Körpəlik çağından Qocalıq dövrünə necə "adlayır": arxasını hələ yerə vura bilmədiyi kişinin "saçlarını tutub durur duman kimi Qocalıq, ...qaşlarına enəmmir..." Görünməzi gerçəkləşdirmə və əksinə, gerçəyi, görünəni mücərrədləşdirmə - Ələkbər Salahzadə yaradıcılığının əsas üsullarındandır. Ömrün şah nöqtəsində təbiidir Qocalıq. Amma sanki burada Qoca ilə Qocalıq arasında içəridən gedən gizli bir mübarizə, çarpışma da var. Qocalıq Qocanı əyib, sinəsinə çökməyə can atan canlı ruhdu elə bil. Bəlkə bu qoca sözləri darı-darı dilinin ucundan qopub tökülən, ... dünyanı divara dirəyən körpədir... Həyat uğrunda döyüşün bu qaçdı-qovdusu şirin qaravəlli sayaq təsirli, yaşayış müdrikliyi kimi yenilməzliyin timsalıdır. Ülviliyə kor qalan, dünyanın genişliyində bol-bol nəfəs ala bilməyən kəs də onun ləzzətindən məhrum olandı, əyin-qarın qayğıları ilə yüklənib özünü puç edəndi: "...Sən büzüşdükcə cücə kimi içində, qabığına dönürmüş göy..." Amma müharibənin mərmi leysanında şikəst olub qayıtsa da, sol ayağının ağrını, ağrısını sağ ayağı çəksə də, sınmayan İnsan var yer üzündə! - "...Bir dava saxlar yadda sağ-salamat sağ ayaq: o ağır davanın ağrı-acısı altda dayanıb atlantsayaq!.." - Bu, heykəl-ayağa qoyulan misilsiz lirik abidədir...

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*